Səh. 2 Bəs zınqırovu pişiyin boynundan kim asacaq? – Azər Musaoğlu
Səh. 5 Mədəniyyətimizin keşiyində duran xanım – Esmira Ələkbərli
Səh. 5 Saz – milli ruhumuzun qidası – Leyla Yusifova
Səh. 6 Abituriyentlərə peşə və universitet seçimində bəzi tövsiyələr – Çiyalə Osmanova
Səh. 2 Geyinmək, yoxsa soyunmaq – Hacı Bəkiroğlu
Səh. 4 “MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI SİYASƏTİ HƏQİQƏTƏN DƏ ƏVƏZSİZDİRMİ?” – MENTOR MÜƏLLİMİN HESABLAMASI, MÜQAYİSƏSİ VƏ PROQNOZU
Səh. 7 Xatirələr – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN
2024-CÜ İL
№ 12 (207)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR: 2030-CU İLƏ QƏDƏR ENERJİ SAHƏSİNDƏ MİLLİ İSTEHSAL İSTEHLAKDAN ÇOX OLMALIDIR



Gürcüstan 2030-cu ilə qədər enerji sahəsində milli istehsalın istehlakdan çox olmasını planlaşdırır. Bunun üçün yeni elektrik stansiyalarının tikintisi həyata keçiriləcək. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze parlamentdəki çıxışı zamanı məlumat verib.

Bununla əlaqədar hökumətin qarşısında strateji vəzifə olduğunu diqqətə çatdıran Baş nazir deyib: “2030-cu ilə qədər enerji sahəsində milli istehsal istehlakdan çox olmalıdır və bu məqsədə çatmaq üçün hər şey edilir”.

Kobaxidzenin sözlərinə görə, ölkə ərazisində yeni elektrik stansiyalarının tikintisi ilə bağlı 284 müqavilə imzalanıb. Onlardan 214-ü su elektrik stansiyası, 26-sı külək, 44-ü isə Günəş elektrik stansiyası olacaq.

O, həmçinin diqqətə çatdırıb ki, yeni elektrik verilişi xətlərinin tikintisi də fəal şəkildə davam etdirilir.

“Biz Qara dənizin sualtı elektrik ötürücü kabeli layihəsi üzərində fəal işləyirik, onun texniki-iqtisadi əsaslandırması iyulda tamamlanacaq”, – deyə Kobaxidze vurğulayıb.

## Aİ LİDERLƏRİNİN BƏYANATI: GÜRCÜSTANIN AVROPA İTTİFAQINA DAXİL OLMASI DE-FAKTO DAYANIB



Gürcüstanın Avropa İttifaqına (Aİ) daxil olması prosesi de-fakto dayanıb. Bu barədə Aİ liderlərinin Brüsseldə keçirilən sammitinin yekunlarına dair bəyanatda deyilib.

Avropa Şurası Gürcüstanda baş verən son hadisələrlə bağlı “ciddi narahatlıq” ifadə edib. Eyni zamanda, qəbul edilmiş “Xarici agentlər haqqında” qanun Avropa Komissiyasının Aİ üzvlüyünə namizəd statusunun əldə edilməsi ilə bağlı tövsiyələrində göstərilən addımlardan yayınma adlandırılıb.

“Avropa Şurası Gürcüstan hakimiyyətini hazırkı fəaliyyət kursunu dəyişdirərək öz niyyətlərini aydınlaşdırmağa çağırır ki, bu da Gürcüstanın Aİ-yə yolunu təhlükə altına alır və faktiki olaraq üzvlük prosesinin dayanmasına gətirib çıxarır”, – bəyanatda deyilib.

Həmçinin, qeyd edilib ki, Gürcüstanda vətəndaş cəmiyyəti nümayəndələrinə, siyasi liderlərə, ictimai fəallara və jurnalistlərə qarşı təhdid və hücum hallarının sayı artır.

## XARİCİ İŞLƏR NAZİRİ: AZƏRBAYCAN BİZİM ÜÇÜN YALNIZ YAXŞI QONŞU VƏ DOST ÖLKƏ DEYİL, EYNİ ZAMANDA, ÇOX YAXŞI STRATEJİ TƏRƏFDAŞDIR



Gürcüstan ilə Azərbaycan bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Azərbaycan bizim üçün yalnız yaxşı qonşu və dost ölkə deyil, eyni zamanda, çox yaxşı strateji tərəfdaşdır. Bu sözləri Tbilisidə Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili azərbaycanlı həmkarı Ceyhun Bayramov ilə keçirdiyi görüşdən sonra brifinqdə deyib.

O qeyd edib ki, hər iki ölkə enerji, nəqliyyat, logistika və digər sahələrdə səmərəli əməkdaşlıq edir.

Regional sülhün əldə olunması məsələsinə toxunan nazir deyib ki, Gürcüstan Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması üçün əlindən gələni edəcək.

“Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdiyi iqtisadi layihələr təkcə bizim üçün deyil Avropa üçün də mühüm əhəmiyyət kəsb edir”, – deyə İ.Darçiaşvili vurğulayıb.

## ALTI MÜXALİFƏT PARTİYASI “BİRLİK BƏYANNAMƏSİ” İMZALAYIB



Gürcüstanda altı müxalifət partiyası oktyabrda keçiriləcək parlament seçkiləri ərəfəsində “Birlik Bəyannaməsi” imzalayıb.

Bunlar “Vahid Milli Hərəkat”, “Qirçi – Daha çox azadlıq”, “Droa”, “Lelo”, “Ağmaşenebeli Strategiyası” və “Axali” partiyalarıdır.

Bəyannaməyə digər müxalifət partiyalarına da qoşulmaq imkanı veriləcək.

Bəyannamədə seçkilər öncəsi vahid strategiyanın yaradılması, gənclər təşkilatları ilə sıx əməkdaşlıq və seçkilərdə qələbə olacağı təqdirdə siyasi koalisiyaya hazır olmaq nəzərdə tutulur.



# BƏS ZINQIROVU PİŞİYİN BOYNUNDAN KİM ASACAQ?

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Danışmağa gələndə hamı danışır – işi bilən də, bilməyən də, məsələyə dəxli olan da, olmayan da; yaşlı da, cavan da, kişi də, qadın da; məsləhət verənə bax, yol göstərənə bax, təklif irəli sürənə bax, plan cızana bax... Deyirsən, ay maşallah, sabaha-birigünə problem həllini tapacaq, iş düzələcək, hər şey yağ kimi gedəcək. Səhər açılır, gəlirsən dünən təyin edilmiş saatda, dünən təyin edilmiş yerə, görürsən, bir ənni-cinni yoxdur, elə bil lələ köçüb, yurdu qalıb. Bir az gözləyirsən ki, bəlkə yatıb qalanı var, suyun kəsilməsinə görə hamamda yarımçıq qalanı var, küləyə görə dünəndən işığı sönüb köynəyini ütüləyə bilməyəni var, tıxacda ilişəni var, avtobusun bir saatdan bir ağzına kimi dolu gəlməsinə görə yolda qalanı var və sair. Bir-iki saat gözləyib zəng edirsən ki, aya, bəs harada qaldınız – biri cavab verir ki, dünən bir balaca külək əsən kimi işıqlar söndü, su kəsildi, kombimiz yanmadı; deyirsən, bunların məsələyə nə dəxli var, cavab verir ki, necə nə dəxli var, hamamda sabunlu qaldım, ev soyuq idi, temperaturum qalxdı. Biri cavab verir ki, dünənki çoban aldadan yağışa görə işıqlar söndü, internetimiz kəsildi, o biriləri ilə əlaqə saxlaya bilmədim. Biri cavab verir ki, iki saat avtobus gözlədim, gördüm gəlmir, qayıtdım evə. Biri ümumiyyətlə cavab vermir, telefonunu bağlayıb və sair və ilaxır.

Sən demə, axşamdan oduna gedən çox olarmış. Sən demə, dünən məsləhət verənlərin, yol göstərənlərin, təklif irəli sürənlərin, plan cızanların hamısı cırtqoz imiş. Danışanda ağızlarına cullu dovşan sığmayanlar iş görməyə, hərəkət eləməyə gələndə cinbata çəkilirlər, özlərini, sözlərini danırlar – dəvə gördünmü, heç qığını da görmədim.

Deyirsən, gəlin sizin bu su, işıq, avtobus probleminizi birdəfəlik həll etmək üçün yığılaq gedək meriyaya, su idarəsinə, işıq idarəsinə, yol departamentinə hamımız bir ağızdan şikayət edək, narazılığımızı bildirək, görək sonra hansı bəhanələriniz olacaq. Dünən səni Kufə camaatı kimi meydanda tək qoyanlar “imana” gəlirlər, yenə başlayırlar coşub-daşmağa, məsləhət verməyə, yol göstərməyə, təklif irəli sürməyə, plan cızmağa. Toplaşmaq üçün vaxt və məkan təyin olunur. Səhər açılır, yenə köhnə hamam, köhnə tas. Bu Kufə camaatı səni bufer kimi irəli verib, özləri yenə gizlənirlər.

Bir gün siçanlar toplaşıb pişiyin zülmündən xilas olmaq məsələsini müzakirə edirlər. Çox götür-qoydan sonra belə qərara gəlirlər ki, bir üsulla pişiyin yaxınlaşdığını əvvəlcədən müəyyən edə bilsələr, onun əlindən qaçıb qurtarmaq asan olar. Buna görə də bir böyük zınqırov tapıb pişiyin boynundan asmaq kifayətdi, siçanlar uzaqdan zınqırovun səsini eşidən kimi pişiyin gəldiyini duyub gizlənə bilərlər. Bu qərarı yekdilliklə bəyənib, qəbul edib arxayınlaşan siçanlardan biri qəflətən deyir: “Ay qardaşlar, qəbul etdiyimiz qərar çox yaxşıdır, amma bir şey məlum deyil: bəs zınqırovu pişiyin boynundan kim asacaq?

İndi bizim bu Kufə caamaatı da qərar qəbul etməkdə, təşəbbüs irəli sürməkdə, yol göstərməkdə, ağıl verməkdə, boş-boş danışmaqda mahirdirlər, iş görməyə gələndə isə hamısı gizlənməyə siçan deşiyi axtarırlar ki, bəs ağrımayan başımı niyə ağrıdım, beş-üç qəpik çörək pulundan niyə olum, kiməsə görə özümü niyə pis edim, tata nə, kürdə də o, bal alanın da, bəkbəz satanın da və daha nələr, nələr...

Elə buna görə də qeyri-müəyyən, dəqiq, konkret mövqeyi olmayan, passiv, qorxaq, ver yeyim, ört yatım, az aşım, ağrımaz başımla növünü davam etdirən bu amorf KÜTlə heç vaxt zınqırovu pişiyin boynundan asa bilməyəcək, ya qorxa-qorxa yaşayacaq, ya da it kölgəsinə sığınacaq.

# GEYİNMƏK, YOXSA SOYUNMAQ



Hacı Bəkiroğlu
hacihaciyev@hotmail.com

Geyim parçadan və müxtəlif materiallardan hazırlanan, insan bədəninin müxtəlif hissələrini örtmək üçün istifadə edilən bədən örtüyüdür. Geyim adətən parçadan və ya toxuculuq materiallarından hazırlanır, lakin zaman keçdikcə heyvan dərisindən və ya digər materiallardan hazırlanmış geyimlərdən istifadə edilməyə başlanılmışdır. Geyim bütün insan cəmiyyətlərinin xüsusiyyətidir və yalnız insanla məhdudlaşır. Geyimin həcmi və növü cinsiyyət, bədən quruluşu, sosial və coğrafi mülahizələrdən asılıdır.

Geyim bir çox məqsədə xidmət edir: dəri və ətraf mühit arasında bir maneə təmin etməklə elementlərdən, kobud səthlərdən, həşərat dişləmələrindən, tikanlardan qoruyur. Paltar soyuq və ya isti hava şəraitinə qarşı müdafiə edir və yoluxucu, zəhərli materialları bədəndən uzaq tutaraq gigiyenik bir səth yarada bilir. Geyim həm də ultrabənövşəyi şüalanmadan qorunmanı təmin edir.

Paltar geyinmək sosial bir normadır və başqalarının gözü qarşısında geyimdən məhrum olmaq utandırıcı hal yarada bilər. Dünyanın əksər yerlərində ictimai yerlərdə paltar geyinməmək ləyaqətsiz ifşa sayıla bilər.

Buraya qədər olanı aydındır. Sosial şəbəkədə də axtarış verdiyiniz zaman ilk başlarda elə bu yazı ilə də qarşılaşa bilərsiniz. Bir də, el arasında dediyimiz namus məsələsidir geyim. Nənə-babalarımız həmişə düzgün geyimli birini gördükdə abırlı, həyalı geyinib deyərdilər.

İslama görə isə geyim və bəzək əşyalarının Allah tərəfindən insanlığa bəxş edilmiş bir nemət olduğu qəbul edilmişdir. Bu neməti yalnız insanlara xas etməklə uca Allah onların dəyərini daha da artırmışdır. Bu haqda Qurani-Kərimdə belə buyurulmuşdur: “Ey Adəm övladları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bəzəkli libas (və ya mal-dövlət) nazil etdik. Lakin təqva libası daha xeyirlidir. Bu, Allahın ayələrindəndir ki, bəlkə, öyüd-nəsihətə qulaq asasınız” (Əl-Əraf, 26).

Bir də, bunlardan əlavə, bəzi bölgələrə, millətlərə xas olan geyim növləri vardır ki, bunların da demək olar ki, əksəriyyəti doğru-düzgün geyimlərdir. Çünki bu geyimlər o bölgəni, milləti və oradakı adət-ənənəni təbliğ edən, tanıdan geyimlərdir.

Gəlin bir də bu gün geyinilən, moda deyərək geyinməkdən çox soyunmağı təbliğ edən paltarlara baxaq. Cəmiyyətimizdə bir çoxları cəmi bir neçə ay əvvəl bəh-bəhlə aldığı paltarı bəyənməyərək moda deyib gedib ondan da pis vəziyyətdə olan bir geyimə yüzlərlə pul xərcləyirlər.

Son zamanlarda isə bu vəziyyət daha da acınacaqlı hal almağa başlamışdır. Hərdən adam durub düşünür ki, görəsən bu gənclər bu cür geyinib küçəyə çıxanda valideynləri nə düşünürlər?

Bilirəm, indi bir çoxunuz da məni qınayacaqsınız ki, sən hansı dövrdə qalmısan, artıq müasir dövrdür. Mən də cavab verirəm ki, müasirlik soyunmaqla yox, ədəblə, əxlaqla, elmlə, irfanla və düzgün istiqamətlə olmalıdır.

Bu yerdə Türkiyənin dahi şairlərindən Mehmet Akif Ersoyun “Kim demiş” şeirindən bu iki misra yadıma düşür:

*Eğer medeniyet açıp saçmaksa bedeni;*
*Desenize hayvanlar bizden daha medeni!*

# PULSUZ DA YAŞAMAQ OLURMUŞ



...Çaymı içək, kofemi? – Gəl, çay içək, kofemiz azalıb...

Hərdən adamın cibi boşalanda dünyanın sonunun gəldiyini düşünür. Nə edəcəm, necə edəcəm kimi suallarla özünü yorur, yeyib tökür. Bu suallara cavab axtarır və cavab da tapılmır. Adamın əli-ayağı yerdən-göydən üzülür. Amma belə deyilmiş.

Sən cibindəki son qəpikləri, daha doğrusu son sentləri çıxarıb saysan da heç nə dəyişmir. İki iyirmi qırxdır ki, qırx. Nə artmır, nə azalmır. Təkrar-təkrar sayırsan və bilirsən ki, cibindəki bu son qəpik-quruşla heç nə, hətta bir çörək belə ala bilməzsən. Beynindən ilk keçən sual bəs mən nə edəcəm, bu qürbətdə kimim yox, kimsənəm yox, kimə ağız açacam olur.

Və bu xırda pulların arasında par-par parıldayan on sentliyi dünənki yağmurlu havada divarın dibindən tapdığını acı da olsa xatırlayırsan. Kimdən düşmüş ola bilər? Az qala hamının bank kartları ilə alış-veriş etdiyi bir yerdə küçədən pul tapmaq ehtimalı yox kimi bir şeydir.

Günlər keçir. Bir, iki, üç. Həftə də doldu. Sən ac deyilsən, bundan sonra bir həftə də, iki həftə də belə yaşaya bilərsən. Dünyanın axırı deyil. Ən azından bunun belə olmadığına özünü inandırırsan. Hər şeyin yaxşı olacağına, bütün bunların bir qorxulu yuxu kimi başa çatacağına əminsən. Uzandıqca uzanan bu yuxudan bəlkə heç özün oyanmaq istəmirsən? Bu yuxunun gözəl bir sonluqla bitməsini gözləyirsən, o gözəl sonluğu gördükdən sonra oyanmağın ləzzətini yaşamaq istəyirsən.

Ancaq boz günlər acı bağırsaq kimi uzanır. Bu bozluğa hər hansı bir rəng qatmağa gücün çatmır. Gücün çatsa belə o rəngi bulmağın müşkülə dönür. Haradadır bozluğa bürünmüş dünyanı işıqlandıracaq o rəng? Əlinlə qoymuş kimi axtarsan da, onun yerini unutmusan. Yaxınlıqda bir yerdə olduğunu düşünsən də, yoxdur, qeybə çəkilib. Sənsə onu aramaqda, axtarmaqda.

Pulsuzluq səni yenmir, yenə bilmir. Əksinə, sən günlər keçdikcə daha da gücləndiyini, nələrəsə qalib gəldiyini fərq edirsən. Kərəminə şükür, ilahi! İnsana bu halında möcüzə yaşada bilirsən.

Ömrün yarıdan çoxunu arxada qoyubsan. Bu, nəğd, ortada olan bir şey. Bunu anlamayacaq yaşda deyilsən yəni. Bu yaşa qədər düşünmədiklərini düşünə bilirsən, yaşaya bilmədiklərini yaşayırsan. Bütün bu yaşantıların fərqli olması üzünə-gözünə qəribə bir təbəssüm də yaraşdırır. Düzdür, arada bu da yaşamaqdırmı kimi sərsəm bir sual verirsən. Bu vəziyyətdə belə bir sualın özünü düşüncələrinin arasına salması yersiz kimi görünsə də, əslində çox normaldır.

Bəzən uzaqlara – geriyə, uşaqlığına, gəncliyinə, lap elə beş-on il əvvələ qayıdırsan. Geridə yaşanmış işıqlı, fərəhli anların azlığı səni heyrətləndirir. Sənin ola biləcək, yox, sənin olmalı olan şeyləri – sevinci, sevgini, işığı ya könüllü kiməsə verdiyini, ya kimlərinsə səndən zorla çəkib aldığını öz-özünə etiraf etmək ağrısını yaşamaq qismətin kimi görünür. Bunların necə olursa olsun səndə, ömründə saxlanmalı, qorunmalı, əldən verilməməli şeylər olduğunun ağrısı ağır bir daş kimi içərində nələrisə əzib tökür, parçalayır və sən o əzilmiş nələrinsə altından çıxmağa çalışırsan. Əzilmiş, parçalanmış həmin o nələrdənsə özünü toplayırsan, bir-birinə yapışdırıb, özünü yeniləyirsən, ortaya fərqli, bir az əvvəlki adama bənzəməyən birinin çıxdığını düşünürsən.

...Çayın var, hələ kofe də qalıb, bir neçə içimlik də olsa, var. Yeməyə də küncdə-bucaqda nəsə tapmaq olar. Qarın dolusu yeməsən də. Dünyanın axırıdırmı? Mayfa muncuğusanmı? Acından öldüyün deyil ki? Bircə bu siqaret zəhrimar olsaydı. Yoxdur, yoxdur. Nə zəhrimardır ki? Bir əlçim tüstü, bir yığın da kül. Sağlamlığın da gedir, cibin də boş qalır, elə deyilmi?..

Adam atacağı növbəti addımın ona xoşbəxtlikmi, bədbəxtlikmi gətirəcəyini bilmir. Hətta növbəti addımın həyatını alt-üst edəcəyini, o alt-üst edilmişliyin altından nələrin çıxacağını da ağlından keçirmir. Pis-yaxşı çıxacaq şeyin alın yazısı, qədər, qismət, qaçılmazlıq olacağını da artıq olmayan ağlından keçirir. Təbii, olacaq bir şey kimi yəni.

Həyat səni ağızı enişə teyləyir. O, qovur, qabaqlayır, atdöşü edir, sənsə onun önündə yıxıla-qalxa üzü enişini yaşayırsan. Bu eniş dibsiz dərəyə dönür. Nə əvvəli bəllidir, nə sonu. Enişin haradan, hansı nöqtədən başladığını bilmirsən, harada başa çatacağını bilməməyin də məlum. Sən eniş aşağı düşdükcə əslində harasa qalxdığını, bu enişin yüksəlişini yaşadığını fikrindən keçirirsən. Eyni zamanda bunun necə bir dərkolunmazlıq olduğunu da anlayırsan. Axı eniş və yoxuş bir-birinin əksidir, inkarıdır, amma bir-birinin varlığını şərtləndirir. Eniş varsa, yüksəliş də var. Birinin yoxluğu digərinin varlığını da sonlandırır. Bəlkə bu eniş yüksəlişin başlanğıcıdır? Hər şey nə qədər şərtidir, deyilmi?

Özünü girişi-çıxışı olmayan, dörd tərəfi başı buludlardan ötədə duran sıldırım qayaların arasına düşmüş kimi hiss edirsən. “Mən niyə buradayam? Məni buraya gətirən nədir? Savabımmı, günahımmı, tamahımmı?”, – düşünsən də, bu sualların səndə hazır cavablarının olmadığını bildiyindən boş ver mənasında əlini yelləyirsən. Amma rahatsan, haradasa bir çıxışın varlığına, o çıxışı tapacağına və ya qəfildən qarşına çıxacağına əminsən. Dan yerinin sökülməsinə, günəşin çıxmasına əmin olduğun sayaq. İşin tərsliyindənmi, nədənmi özünü o çıxışı axtaran kimi aparsan da, əslində heç buna cəhd etmədiyini bütün hərəkətlərinlə göstərirsən. Başdansovdu iş görən adamlar kimi hərəkət edirsən. Sanki o çıxışa gərək yoxdur, özünü elə bu dörd divarın arasında vurnuxmağın, var-gəl etməyin xoşbəxt etdiyi biri kimi aparırsan. Hər şeyin nisbi olduğunu anlayacaq vəziyyətdəsən. Bəlkə sən xoşbəxtliyini bu sıldırım qayalar arasında tapıbsan?

...Çay içmək pis olmaz. Nə deyirsən? – Nə bilim, çay içməkdən də bezdik. Yaxşı, sənin xətrinəmi dəyəcəm, birini içək...

**Afiq MUXTAROĞLU**

*Almaniya*

*21 noyabr 2020*

# "MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI SİYASƏTİ HƏQİQƏTƏN DƏ ƏVƏZSİZDİRMİ?" – MENTOR MÜƏLLİMİN HESABLAMASI, MÜQAYİSƏSİ VƏ PROQNOZU

Saatın qiymətini 96 lariyə qədər artırmışıq deyirlər.

***Maraqlıdır, bu rəqəm haradan çıxdı?***

18 saata görə orta (ümumi) təhsili olan kadr 433 lari alırdı. Baş müəllimin əlavəsi 15 saata görə 795 lari idi. 433+795=1228. Buna vəd edilən 500 larilik əlavəni də artıraq. 1728 lari oldu. 1728:18= 96 lari. Bu 96 lari ümumi və orta peşə təhsili olan şəxslərə ilk 14 saat üçün baza əməkhaqqıdır. Baş müəllim əlavəsi saatlıq xərcə daxil edilir və ayrıca mövcud olmayacaq.

***Cədvələ əsasən 206 lari dəyəri olan 15-ci saatda nə baş verir?***

Statusun 795 larilik əlavəsi indiyə qədər 15 saata görə tam verilirdi. 795 larini 15-ə bölsək saata 53 lari gəlir. Yeni hesablama zamanı əlavə ilə birlikdə ümumi məbləğ 15-ə deyil, 18-ə bölünüb. Ona görə də saata 53 lari əvəzinə 44,17 lari düşüb. Fərqi birbaşa 15-ci saata əlavə ediblər ki, sonra kimsə 15 saata tam əlavəmizi vermirlər deyə mübahisə etməsin. Bununla 15 saatı olmayan müəllimlərin hər saatda əlavəsi 9 lari azalıb. 15 saatdan yuxarı bütün saatların qiyməti 80 lari olub.

Baş müəllim orta-peşə təhsili ilə 18 saata 1790 lari alacaq. 455+795=1250 idi. Onlar üçün artım 550 lari alınır.

İndi baxaq aparıcı müəllimlərin əməkhaqqında nə baş verib. Dəqiqlik üçün yenə orta-peşə təhsili olanlara hesablayaq (bakalavr və ya magistratura əlavəsi, demək olar, eynidir. Ona görə də müqayisəyə təsir göstərmir). Onların əməkhaqqı indiyə kimi belə idi: 455+1175=1630. Buna vəd verilmiş 500 lari əlavə olunarsa, tam qrafikə görə (həftədə 18 dərs saatı) əməkhaqqı 2130 lari olmalı idi.

Real olaraq baş müəllimin 1790 larisinə yalnız 150 lari əlavə olunur (o da yalnız bir məktəbdə). Yəni belə çıxır ki, 1790+150=1940 lari alınır. Mövcud olanla müqayisədə artım 310 laridir. Əgər nəzərə alsaq ki, köhnə qayda ilə 2024 və 2025-ci ilin yanvarından 125 lari artırılmalı idi, 60 lari artım alındı.

İndi mentor müəllimlərlə nə baş verdiyinə baxaq. Dəqiqlik üçün yenə də orta-peşə təhsili olanlara hesablayaq (bakalavr və ya magistratura əlavəsi yeni qaydada da, demək olar, eynidir, ona görə müqayisəyə təsir göstərmir). Onların əməkhaqqı indiyə kimi belə idi: 455+1475=1930. Buna vəd verilmiş 500 larilik artım əlavə olunduqda, tam qrafikə görə (həftədə 18 dərs saatı) əməkhaqqı 2430 lari olmalı idi.

Real olaraq onların baş müəllim statusuna yalnız 300 larilik funksiya əlavəsi (o da yalnız bir məktəbdə) artırılır. Yəni belə çıxır ki, gözlənilən 2430 lari əvəzinə 1790+300=2090 lari alınır. Mövcud olanla müqayisədə artım 160 laridir. Əgər nəzərə alsaq ki, 2024 və 2025-ci ilin yanvarından köhnə qayda ilə 125 lari artım olmalı idi, 90 lari azalma alındı.

İndi az saatı olan müəllimlərin, bu xoşagəlməz qrafikdə belə tam əlavə alanların taleyini müzakirə edək. Dəqiqlik üçün yenə də orta-peşə təhsili olanlara hesablayaq (bakalavr və ya magistratura əlavəsi yeni qaydada da, demək olar, eynidir, ona görə müqayisəyə təsir göstərmir). Məsələn, kompüter texnologiyalarında 7 saatı olan müəllim. Onların əməkhaqqı indiyə kimi belə idi: 171+1475=1645. Buna 7 saata əsasən vəd verilmiş əlavəni, 194 lari artırsaq, eyni qrafikə (həftədə 7 dərs saatı) əməkhaqqı 1839 lari olmalı idi.

Real olaraq onların 7 saatının 672 larisinə yalnız 300 lari əlavə olunur (o da yalnız bir məktəbdə). Yəni gözlənilən 1839 lari əvəzinə 672+300=972 lari alınır. Mövcud olanla müqayisədə azalma 1645-972=673 lari. Əgər nəzərə alsaq ki, 2024 və 2025-ci ilin yanvarından köhnə qayda ilə 125 lari artım olmalı idi, 923 lari azalma alınır.

Hakimiyyət qərar verib ki, müəllimləri gözlənilmədən belə azalmadan qorusun və 2 il ərzində indi əməkhaqqı az olanların keçid maddəsi ilə köhnə əməkhaqqını saxlayacaq, hətta üzərinə 200 lari də artıracaq.

Amma bu yeni qayda ilə mentor müəllimlərin əməkhaqqının yekunda əhəmiyyətli dərəcədə azalması faktını dəyişmir. Aparıcıların əməkhaqqı isə olduğu kimi qalır və ya bir az artırılır.

Az saat ilə tam əlavəsi olan müəllimlər üçün azalma dəhşətlidir (yarıya bölünür).



Bütün bunlardan əlavə müəllim fənn qrupundan bir fənn imtahanı veribsə və həmin qrupdan başqa fənləri tədris etdiyi halda əlavə alırdı. Həmçinin rus dili (xarici dil kimi) imtahanını vermiş və rus sektorunda rus dilini ana dili kimi tədris edənlərə status əlavəsi verilirdi.

2 il belə davam edəcək (keçid dövründə). Sonra isə fənn imtahanını uğurla vermiş müəllimin dərs saatının qiymətini 96 lari hesablayacaqlar. Qalan saatlar köhnə hesab ilə ödənir.

***Bu kimi əməkhaqqı siyasəti hansı risklər yaradır?***

1. Uğurlu və islahatların ardınca gedən müəllimlərin tam məyusluğu, ətalət və minimal həvəslə işləməyə davam etmək;

2. Əməkhaqları "görünməmiş artım" əvəzinə xeyli azalan peşəkar kadrların sistemdən və ölkədən getməsi;

3. Fənn qruplarından tam əlavəni almaq üçün 15 saata qədər ardıcıl saatlarla qrafiki dolduranların 2 ildən sonra əməkhaqqı əhəmiyyətli dərəcədə azalacaq (25 % və daha çox). Bu onların elementar yaşayış şəraitinin olmaması səbəbindən sistemdə qalmalarını qeyri-mümkün edəcək;

4. Onsuz da çatışmayan ixtisaslara marağın kəskin azalması, bu da müvafiq fakültələrə daha az abituriyentin cəlb olunmasına gətirib çıxaracaq;

5. Sistemdən çıxan kvalifikasiyalı kadrları əvəz edəcək kadrların cəlb olunmasına, dəvət olunmuş və ya statusu olmayan, "axtaran" müəllimlərin yenə 300-400 lariyə məktəbdə saxlanılması mümkün olmayacaq;

6. Sinif rəhbərlərinin 80 larilik əlavəsi uzun zamandır məsxərəyə səbəb olub və məktəblərdə sinif rəhbərini məcburi qaydada təyin edirlər. Bu isə uşaqlara qarşı qeyri-müvafiq diqqət riski yaradır;

7. Bakalavr və magistratura dərəcəsi olanlar arasında, magistratura və doktor dərəcəsi olanlar arasında əməkhaqqının fərqi o qədər cüzi olub ki, kiminsə nadir halda təhsilini inkişaf etdirmək, kvalifikasiyasını yüksəltmək istəyi yaranacaq;

8. Hakimiyyətə qarşı antaqonist olan vətəndaşların sayını artırır ki, bu da seçkilərdə özünü göstərir.

***Bu gün təhsil sistemimiz hansı çatışmazlıqlar qarşısında durur?***

1. Dağlıq regionlarda riyaziyyat, fizika, kimya, biologiya, kompüter texnologiyaları, xarici dil, musiqi, incəsənət, idman sahələrində ixtisaslı (tək ixtisaslı deyil) kadrların kəskin çatışmazlığı!

2. Pedaqogika və əvvəlki bənddə sadalanan istiqamətlə maraqlı tələbələrin kəskin çatışmazlığı!

3. Kvalifikasiyalı pedaqoqlar korpusunun 60 %-nin və daha çoxunun 55 yaşdan yuxarı olması!

4. Region məktəblərində dözülməz infrastruktur problemləri!

Bu gün aparılan, söz oyunu ilə aldadılmağa istiqamətlənmiş əməkhaqqı siyasəti yuxarıda qeyd olunan heç bir risk və problemə cavab olaraq əlverişli proqnozlar verməyə imkan vermir.

***Tövsiyə:***

1. Yaxın bir neçə gün ərzində nazirliyin bütün məsul şəxslərinin iştirakı ilə keçid dövründən (2 il) sonra yeni əməkhaqqı qaydasının əməkhaqlarına mənfi və ya neytral təsir edəcək bütün müəllimlərlə görüş təşkil edilməlidir və yanaşma dəyişdirilməlidir;

2. Sinif rəhbərinin əlavəsi ən azı 3 dəfə artırılsın;

3. Təhsil şərtlərinə görə əlavə bakalavr, magistratura və doktorlar üçün minimum on dəfə, 200, 400, 1000 lariyə qədər artırılsın;

4. Staja əsasən əlavə minimum 10 dəfə, 150, 300, 450 lariyə qədər artırılsın;

5. Funksiyaya görə əlavələr minimum 250 və 500 lariyə qədər artırılsın. Məktəblər birləşdirildiyi halda əlavə bütün məktəblərə ayrı-ayrılıqda verilsin.

İndiyə qədər də demişəm, indi də deyirəm – aparıcı və mentor statusu bir qism müəllimlərin əldə etdiyi akademik dərəcədir, indi isə bu iqnor olundu! Əməkhaqqı formulunun hazırlanması prosesi niyə gizlin idi, həmin komissiyada bütün statuslar üzrə bir neçə pedaqoq da ola bilərdi. Bizi niyə fakt qarşısında qoydular? Nə çıxır? – Biz hüquqsuz cəmiyyətik? Nə zaman istəsələr artıracaqlar, nə zaman istəsələr azaldacaqlar?!

Biz bu islahatın nəticələrini tezliklə görəcəyik. Heç bir motivasiya, qeyri-formal təhsil yenidən öləcək, yalnız dərslər!

Bu 21-ci əsr məktəb modeli deyil!

*Mənbə: EDU.ARİS.GE.*

*Yazının müəllifi:* ***Mziya KAXADZE*** *– Xulo bələdiyyəsinin Qurti ictimai məktəbinin kompüter texnologiyaları üzrə mentor müəllimi.*

*Gürcü dilindən tərcü etdi:* ***Aynurə ƏLİYEVA***



# MƏDƏNİYYƏTİMİZİN KEŞİYİNDƏ DURAN XANIM

Dönüb keçmişimizin izi ilə geri gedəndə tariximizin bir Tiflis dönəmini maraqlı bir film kimi gözümüz önünə gətiririk. Şeytanbazar, hamamlar, Nəftulluq bazarı, Ortacala, bazar meydanı, Meydan məhəlləsi adlanan yeri çox eşitmişik. Qədim Tiflisin məşhur məhəllələri bizə uzaq gəlsə də özündə az bildiyimiz çox gerçəkləri saxlayır. Bu mövzu bir başqa yazı olacaq, bu gün isə həmin Tiflis qaynarlığında böyümüş, o gündən bu günə bir yol gələn insan haqqında yazmaq istədim.

Mənim bu dəfəki qəhrəmanım Gürcüstanda ziyalıların çox yaxşı tanıdığı, tələbələrin dostu, Tbilisidə mədəniyyət beşiyimizin yüyrüyünü yırğalayan Leyla Əliyevadır. O, 1948-ci ildə dünyaya gəldi. Leyla evlərinə yaxın olan məktəbdə oxuyurdu. Müsbət davranışı, xoş rəftarı onu sinfin hörmətli qızlarından etmişdi. Milli özəlliyi ilə bərabər dürüstlüyü, sədaqəti və xoş rəftarıyla da fərqləndi. Bu fərqlilik ona yaxşı dostlar qazandırdı.

Məzun olduqdan sonra humanitar sahədə oxumaq istəsə də sinif yoldaşları ilə qərarlaşıb iqtisadiyyata sənəd verdi. Leylanın sadə, səmimi xasiyyəti ona çox dostlar qazandırmışdı. Bu dostlar içində müxtəlif vəzifəli şəxslərin övladları vardı.

Gənc Leyla məzun da oldu. Ailə, uşaqlar onun xeyli zamanını alsa da xeyli sonra arzu və istəklərinin davamı yoluna çıxdı. Bu yolda yaxşı dost, yoldaş olmağın bəhrəsini qazandı. İqtisadçı Leyla xanım ikinci təhsilini də aldı. Bu, artıq onun istəyi idi. 1996-cı ildə Heydər Əliyevə məktub ünvanladı. Məktubda Tbilisidə olan Cəlil Məmmədqulzadə, Nəriman Nərimanov və Mirzə Fətəli Axundov muzeylərindən danışmışdı. Düzdü, bu məktubun sədası illər sonra çıxacaqdı...

2000-ci illərin əvvəllərində Azərbaycan-Gürcüstan mədəni əlaqələri təşkilat formasında yarandı və "Sitkva – Söz" adlandırdığı analitik qəzet təsis etdi. 2005-ci ildə Gürcüstan azərbaycanlılarının təşkilatını yaratdı və prezidenti oldu.

Leyla xanım bir neçə dəfə Azərbaycan rəhbərliyinə muzeylərin bərpası, təmiri haqqında müraciət etmişdir. Nəhayət bir dəfə artıq arxivdən belə Axundovun Tiflisdə rus canişinindən ev tikmək üçün aldığı izacə kağızını da Bakıya yolladı. Bu, barelyef və kiçik muzeylə kifayətlənmişdi. Binanın altı restoran, digər mənzillərdə də ailələr yaşayırdı. Yəni ailələri mənzillə təmin etmək, hər üç muzeyi birləşdirmək böyük maddi dəstəklə bərabər, həm də bir rəsmi kimlik istəyirdi.

Nəhayət 2007-ci ildə "SOCAR" şirkətinin maddi dəstəyi ilə Axundov və Nərimanov muzeyi əsaslı bərpa olundu. 2008-ci ildən isə Axundovun ev muzeyi Azərbaycan mədəniyyəti mərkəzinə çevrildi və Leyla xanım ora direktor vəzifəsinə təyin olundu.

Bu gün artıq Leyla xanım illərdir Tbilisidə yerləşən Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktorudur. Burada müxtəlif kurslar, dərnəklər; elmi, kütləvi, bədii, ictimai tədbirlər mütəmadi olaraq qeyd olunur. Hətta Gürcüstanda yaşayan Azərbaycan vətəndaşları üçün də bu məkan bir toplum yeri, bir yurd yeridir. Muzeyin birinci mərtəbəsində "Axundov kafe" yerləşib. Maraqlı tərəfi odur ki, kafeyə gələnləri ev sahibinin – Axundovun mum heykəli qarşılayır.



Leyla xanımın nəvəsi Leyla da müzeydə nənəsi ilə birlikdə çalışır. Xarici dillər mütəxəssisi olan nəvə Leyla əcnəbi qonaqlara Azərbaycan mədəniyyətindən, XIX əsr Tiflisdəki maarif, mətbuat, inqilab, intibah dövründən sevə-sevə danışır...

Nə gözəl ki, bu gün Rustavi, Bolnisi, Qardabani, Dmanisi, Marneulidə inteqrasiya mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar Leyla xanımın açdığı o cığırdan başlayan yoldur. Hansı ki, o yol üçün illərlə cəhd göstərənlər vardı. Bax, əvvəldə danışdığım yaxşı dostların yaxşı niyyətlərə dəstəyi bugünkü yolun cığırına işıq salmışdır.

Leyla xanım bacardığı qədər imkan və fürsətlərdən istifadə edərək hətta beynəlxalq müsabiqələrdə, təşkilat yığıncaqlarında Azərbaycan mədəniyyətini fəxrlə təbliğ etdirir. Gürcüstan muzeylərində olan Borçalı tarixini əks etdirən xalçalardan musabiqələrdə nümayiş etdirir.

Leyla Xanımın bu əməyini Azərbaycan və Gürcüstan Respublikaları çox yüksək qiymətləndiriblər. Ona verilən mükafatlar və fəxri adların siyahısı çox uzundur. Ən böyük fəxri ad isə xalqına xidmət adıdır.

İstədiyiniz yolun yolçuluğunda Sizə yeni nailiyyətlər arzu edirəm, Leyla xanım!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*



# SAZ – MİLLİ RUHUMUZUN QİDASI



Aşıq sənəti Azərbaycan musiqi mədəniyyətinin ən qədim sahələrindən biri olmaqla türk dünyasının, türk mənəviyyatının rəmzlərindəndir. Saz çalğı, oxuma, şeir demə, söz və dastan ifaçılığı, aktyorluq və rəqs sənətlərini birləşdirən saz-söz sənəti, muğam sənəti ilə yanaşı, Azərbaycan milli mədəniyyətinin ən əski qatları ilə bağlıdır. Azərbaycan aşıq sənəti çox dərin tarixi kökləri olan və yüzilliklər boyu keçilən inkişaf yolunun məntiqi məhsuludur. Qədim türkdilli xalqlarda şaman, qam, oyun, baxşı, yanşaq, varsaq, nəhayət ozan kimi tanınan sənətkarlar bugünkü aşığın əcdadları sayılırlar. Ozan sənəti yüzilliklər və minilliklər boyu böyük təkamül yolu keçdiyi kimi, qopuz da ona oxşar təkamül yolu keçərək saz aləti şəklini almışdır.

Təzənə ilə çalınan simli çalğı aləti olan saz və ulu ozan sənətinin davamçısı olan aşıq saz-söz sənətinin ayrılmaz tərkib hissəsidir. Azərbaycan sazı türkdilli xalqlar arasında yayılmış saz və ona oxşar alətlərdən çalğı texnikası, səs baxımından danılmaz üstünlükləri ilə seçilir. Saz haqqında Şah İsmayıl Xətayinin könül oxşayan bir qoşması var. Məhz həmin qoşmada o, sazı belə tərənnüm edir:

*Bu gün ələ almaz oldum mən sazım,*
*Ərşə dirək-dirək çıxar avazım.*
*Dörd şey vardır bir qarındaşa lazım,*
*Bir elm, bir kəlam, bir nəfəs, bir saz.*

Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomima, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir. Aşıq şeirinin janrları qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbəndlə yanaşı, qoşmanın təcnis, çığalı təcnis növlərindən ibarətdir. Aşıq musiqisinin ən geniş yayılmış növlərindən biri sazın müşayiəti ilə solo oxumaqdır.

Sazda çalmaq tarixi inkişaf prosesində tədricən müstəqil bədii əhəmiyyət kəsb etmişdir. 2009-cü ildə Azərbaycan aşıq yaradıcılığı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Azərbaycan bəstəkarlıq məktəbinin əsasını qoymuş dahi Üzeyir bəy Hacıbəyli "aşıq" sözünü "eşq" sözü ilə bağlamışdır. Azərbaycan musiqi mədəniyyətində xüsusi yeri və əhəmiyyəti olan aşıq sənəti bu gün də olmaqdadır. Xalq yaradıcılığında mövcud olan aşıq sənəti üçün yeni keyfiyyət xüsusiyyətləri xasdır ki, bunlar da milli irs kimi Azərbaycan musiqisində peşəkar bəstəkarlıq yaradıcılığının əvəzolunmaz və çox mühüm mənbəsi hesab edilir.

Aşıq sənəti Azərbaycan xalqının mənəvi aləminin ruhunda və qanındadır. Xalqın tarixi dəyərləri və mənəvi inkişaf səviyyəsi çoxəsrlik aşıq musiqisində təzahür olunur. Azərbaycan xalqının fəlsəfi mədəniyyətinin inkişafında aşıq sənəti mühüm rol oynayır. Aşıq musiqisi mənəvi dəyərləri tərənnüm edir, doğma torpağa, vətənpərvərliyə, adət-ənənələrə sədaqət zəminində xalqın musiqi təfəkkürünü, həm də fəlsəfi mədəniyyətini formalaşdırır. Azərbaycan xalqının musiqi mədəniyyətinin tərkib hissəsi olan aşıq sənəti əsrlərin sınağından çıxmış və bu gün də yaşayırsa bu, onun xalqımızın ruhunun, könlünün və qəlbinin bir parçası olduğunu göstərir. Bu sənəti qorumaq, gələcək nəsillərə çatdırmaq bizim təməl borcumuzdur.

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*

# ABİTURİYENTLƏRƏ PEŞƏ VƏ UNİVERSİTET SEÇİMİNDƏ BƏZİ TÖVSİYƏLƏR



Demək olar ki, artıq imtahana sayılı günlər qalıb və abituriyentlərin necə həyacanlı olduqlarını, bir o qədər də qorxduqlarını başa düşürəm. İndidən hər birinə uğurlar arzulayıram!

Keçən dəfə "Abituriyentlərə tövsiyə" adlı yazımda tələbə namizədlərə hazırlıqla, imtahanla, hazırlanmaq rejimi ilə bağlı bəzi tövsiyələr vermişdim. İndi isə universitet və peşə seçimi mövzusuna toxunmaq istəyirəm. Baxmayaraq ki, vahid milli imtahanlara qeydiyyat bir neçə ay əvvəl başa çatıb və tələbələr universitet seçimlərini ediblər, amma imtahan nəticələri müəyyən olduqdan sonra belə sıralamada dəyişiklik etmək imkanları var. Təbii ki, bu, onların nəticələrindən asılıdır. Bəs abituriyentlər universitet seçimini necə edirlər? Düzgün universitet seçimi bizim gələcək peşəmizdə uğurlu olmağımıza nə dərəcədə təkan verə bilər?

Təbii ki, ali təhsil almaq istəyən şəxs ən yaxşı universiteti seçir. Əksəriyyət üçün ən əlverişli seçim dövlət universitetləri olur. Onlar arasında isə diplomu dünyada ən çox tanınan, abituriyentlərin ən çox seçdiyi, məzunlarının iş tapmaq imkanının çox olduğunu düşündükləri və ya iş həyatında uğurlu olduğunu düşündükləri universitetlər var. Bəziləri isə sırf qohum-qonşunun uşağı seçdiyi universiteti seçir.

Təhsil aldığımız universitetin bizim gələcək iş həyatımızda uğurlu olmağımızda müəyyən rol oynadığı inkar edilməzdir. Təhsil aldığımız müddətdə müəyyən proqramlar çərçivəsində universitetin bizə yaratdığı imkanlardan istifadə edərək qazandığımız bilik və bacarıqların iş həyatımızda istifadə olunması, şübhəsiz ki, bizim uğurumuza uğur qatan faktorlardan olacaqdır. Təhsil aldığımız müddətdə müəyyən proqramlar çərçivəsində həyata keçirilən layihələrdə iştirak etmək və yeni insanlarla tanışlıq da bizi uğura aparan bir faktor olacaqdır.

Peşə seçiminə gəldikdə isə, bəziləri üçün seçim etmək həm çox asan, həm də bir o qədər çətin ola bilər. Seçim haqqımız da həm hüdudsuz, həm də müəyyən faktorlar çərçivəsində məhduddur. Bəziləri öz ata-ana, yaxud nənə-baba sənətlərini davam etdirmək istəyirlər və artıq seçimlərini ediblər. Burada seçim hələ də qərar verə bilməyənlərədir. Bunun üçün, məncə, müəyyən nüanslara diqqət yetirmək lazımdır. İlk öncə insan özünün o peşəyə nə qədər uyğun olub-olmadığına, həmin peşəyə yaşadığı regionda nə qədər tələbat olduğuna, iş tapmağın asan, yoxsa çətin olduğuna, bu peşənin ona nə qədər gəlir gətirəcəyinə, özünün inkişaf edib işində irəliləməyinin asan olub-olmayacağına diqqət yetirməlidir. Özünün bacaracağı və ətrafındakı insanlara da müəyyən fayda verəcəyi bir sənəti seçmək daha məqsədəuyğundur.

İşin tövsiyə hissəsinə gəldikdə isə, əvvəlcə onu demək istəyirəm ki, hər iki seçimi – həm universitet, həm də peşə seçimini, məncə, insan özü etməlidir. Təbii ki, kimləsə məsləhət və fikir alış-verişi etmək də olar, amma son qərar yenə özlərinin olmalıdır. Çünki universitetdə təhsil almaq qəbul olmaqdan daha çətindir. Əgər biz kiminsə seçdiyi sahədə və yerdə oxuyuruqsa orada müəyyən çətinliklərlə üzləşdikdə onların öhdəsindən gələcək gücü özümüzdə tapmaq bizim üçün çətin olacaqdır. Amma öz seçimimiz olduqda, məncə, daha həvəslə oxuyarıq, işləyərik.

Qaldı ki, seçim etmək, qərar verməmişdən əvvəl universitet və seçəcəyimiz peşə haqqında araşdırmalar etməyimiz mütləqdir. Bu araşdırmalardan sonra tələb olunan xüsusiyyətlərdən hansının bizdə mövcud olub-olmadığını müəyyən etdikdən sonra seçim etmək daha asan olacaqdır. Əks halda yanlış seçim edib yarı yolda qala bilərik. Linqvistik olmaq istəyən bir şəxsin öz sənədlərini texniki universitetə verməsi, qandan qorxan bir şəxsin həkim olmaq istəməsi və ya heç bir dənizlə, okeanla əlaqəsi olmayan bir ölkədə yaşayan bir gəncin xaricdə dənizçilik təhsili alıb öz ölkəsinə qayıtması nə qədər düzgündür, indi siz özünüz təsəvvür edin.

Xarici ölkədə təhsil alıb işləmək də ayrı bir seçimdir. Amma bir gün öz vətənimizə qayıtmaq məcburiyyətində qalmaq kimi bir hal olduqda öz peşəmizi davam etdirə biləcəyimiz bir sənət seçmək daha yaxşı olar deyə düşünürəm.

Düzgün seçim etməyimizi məhdudlaşdıran digər faktor isə qəbul zamanı baryeri aşıb-aşmamaq məsələsidir. Bəzi abituriyentlər istədikləri nəticəni əldə edə bilməyib istədikləri universitetə qəbul ola bilmədikdə ballarının çatdığı universiteti seçməyə üstünlük verirlər. Məncə, bu, kortəbii seçimdir, çünki onlar bir il itirmək istəmirlər, amma o bir ilin onlara nələr qazandıra biləcəyini də gözardı edirlər. Onda onlar üçün universitetdə təhsil almaq istədikləri sahədən daha önəmli olduğu fikri yaranır. Bu kortəbii seçimin gələcəkdə daha çox vaxt itirmək imkanı yaradacağı kimi bir faktor da mövcuddur.

Onu da əlavə edim ki, əksəriyyətimiz bu seçimləri səhv etdiyimizi anladıqda ya yenə də oxumağa və ya işləməyə davam edir, ya da tamamilə buraxırıq. Başqa alternativ yollar axtarmağa çalışmırıq. Bir müddətdən sonra, oxuduğumuz peşənin bizim üçün düzgün seçim olmadığını anladıqdan sonra başqa peşə, universitet seçimi də edə bilərik, bu, normal haldır. Bəzən bizimkilər ikinci kursa qədər TSU-da təhsil alıb daha sonra müəyyən səbəblərdən irəli gələrək digər universitetlərdə təhsilini davam etdirənlərə xor baxırlar, "oxuya bilmədi" kimi fikirlər irəli sürürlər. Amma onların işin içindəki çətinliklərdən xəbərləri yoxdur. Ona görə də öz seçimlərimizi etmək daha önəmlidir. Qəbul ola bilməmək, səhv seçim etmək adi mövcud olan və bizim mənfi qəbul etdiyimiz hallardır. Amma uğur qazanmaq istəyən şəxs seçimin səhv olduğunu dərk etdikdə onu düzəltməyi bacarmalıdır. Bir il itirməkdən qorxmağa ehtiyac yoxdur. Yolun başındakı edilən səhvləri və uğursuzluqları aradan qaldırmaq nisbətən daha asan olur. Bunların hər biri isə biz gənclərə müəyyən təcrübələr qazandırır. Ona görə də özümüzü məhdudlaşdırıb lazımsız stereotiplərə çevrilməyə ehtiyac yoxdur.

Bir daha bütün abituriyentlərə imtahanlarda uğurlar arzulayır, düzgün seçim etmək və arzuolunan nəticələr əldə etmələrini diləyirəm!

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# ALEKSANDRE ORBELİANİ - XATİRƏLƏR

*Gürcü şair, nasir, dramaturq, publisist, tarixçi, gürcü romantiklərin böyük nəslinin nümayəndəsi, çar II İraklinin nəvəsi, şahzadə Teklenin oğlu Aleksandre Orbeliani (Cambakur-Orbeliani) 1802-ci il mayın 24-də anadan olmuşdur.*

*Aleksandre Tiflis nəcib kişilər məktəbində, sonra Peterburq Hərbi Məktəbində təhsil alıb. 1828-ci ildə Tiflis qəzasının tavad-aznaurluğunun rəhbəri seçilib. Aleksandre İrana və Osmanlıya qarşı mübarizələrdə iştirak edib. 1829-cu ildə quberniya idarəsində müşavir işləyib. O, 1832-ci il sui-qəsdinin rəhbərlərindən və təşkilatçılarından biri olub ki, buna görə də həbs edilib və Orenburqa sürgün edilib.*

*1840-cı ildə Vətənə qayıdan kimi ictimai həyata qaynayıb-qarışıb. "Siskari" ("Dan ulduzu") jurnalının bərpasında iştirak edib, jurnalda öz əsərlərini dərc etdirib. Gürcü teatrının dirçəlişi, jurnal-qəzetlərin təsis olunması, məktəblərin açılması qayğısına qalıb.*

*Aleksandre Orbeliani şeilər, hekayələr, dramlar, memuarlar və publisist yazıların müəllifidir. Onun "Mtovare" ("Qəmər", "Ay") adlı hekayəsi 1832-ci ildə "Tiflis çağırış vərəqələrində ədəbi hissələr" jurnalında çap olunub. Aleksandre yeni gürcü poeziyasında sərbəst şeirin ilk müəlliflərindən biri olub. Onun kifayət qədər rəngarəng ədəbi irsi tematik olaraq, demək olar ki, bir məsələ ilə, yəni gürcülərin "yenilmiş şəxsiyyətini" aydınlaşdırmaqla bağlıdır. Yazıçının baxışı Gürcüstanın keçmişinə doğru yönəlmişdir. Keçmişi ideallaşdırmaq, onun böyüklüyünü göstərmək Aleksandrenin əsas məqsədi idi.*

*Aleksandre Orbelianinin "Xatirələr" əsəri, burada yazıçının Gürcüstandakı müasir vəziyyəti, o dövrün ictimai həyatını xarakterizə edən mənzərələr və "İberiyalıların kilsə nəğmələri, mahnıları və zümzüməsi " etnoqrafik əsəri diqqətəlayiqdir. 1860-cı illərin əvvəllərində o, vahid ədəbi dilin yaradılmasının tərəfdarı olub və köhnə gürcü ədəbi dilinin bərpasını, ondan müasir yazının inkişafı üçün əsas kimi istifadə olunmasını tələb edib.*

*Aleksandre Orbelianinin tarixi əsərləri arasında "Gürcüstanda 1829-cu il iğtişaşları", "Gürcüstan çarı İraklinin oğlu Levan", "Dağıstandan ləzgilərin Gürcüstana köçü", "Gürcüstanda çar II İrakliyə əhd", "Xatirələr", "Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu" kimi əsərlərini qeyd etmək lazımdır. Bu sonuncu əsərdə, doğrudur, bəzi*



*ənənəviliklə, lakin diqqətəlayiq faktları göstərməklə Krtsanis döyüşü və o dövrkü Şərqi Gürcüstandakı siyasi vəziyyət təsvir edilib.*

*Aleksandre Vaxtanq oğlu Cambakur-Orbeliani 1869-cu ildə vəfat etmişdir.*

Qəzəblənən Ağa Məhəmməd Şah Qacar İraklinin üzərinə yeriyirdi, amma həm də sən demə, qorxurmuş: çar İrakli ağıllı adamdır və bununla yanaşı Nadir şahın yetirməsidir, buna görə ehtiyatlı olmalıyam, bunun üçün adamlar göndərirdi və istəyirdi onu birtəhər öz tərəfinə çəkə. Son dəfə olaraq ondan yenə xahiş etdi: birincisi, oğlunu və ikincisi, bir nəvəni girov olaraq mənə ver və bir də, Rusiya ilə dostluqdan əl çək, elə dərhal dönüb geri qayıdacağam. Çar İrakli hər iki şərtinə çılğınlıqla rədd cavabı verdi və Ağa Məhəmməd Şah Qacar da buna görə Gürcüstana hücum etmək qərarına gəldi.

Mən əvvəllər də Ağa Məhəmməd Şah Qacarın gəlişini təsvir etmişəm. Ağa Məhəmməd Şah Qacar Tiflis şəhərinin yaxınlığına gəldi, çar İraklinin qoşunu hələ də heç yerdə görünmürdü, gürcülər hər tərəfə yönəldilər və möhkəm yerlərdə sığındılar: tavadlar, istərsə də aznaurlar, eləcə də kəndlilər – hamısı birdir (Tavad – XV-XVIII əsrlərdə Gürcüstanda feodal sinfinin yuxarı təbəqəsinin nümayəndəsi, aznaurdan fərqli olaraq ayrıca titul. XV əsrə qədər feodal sinfi nümayəndələrinin ümumi adı aznaur olmuşdur. Aznaurların yuxarı təbəqəsini əyan aznaurlar, aşağı təbəqəsini isə aznaurlar təşkil edirdi. Aznaur – feodal ictimaiyyətin hökmran sinfinin nümayəndəsi. Termin yad əsillidir və gürcücə qanunilaşdirilmiş söz kimi hesab olunur. Bəzi tədqiqatçılar fars dilində "zana" (tayfalar birliyi, millət) ilə, bəzi tədqiqatçılar isə fars dilində olan "azna" (əsilzadə) ilə əlaqələndirir – M.M.). Bunun üçün deyirlər: Qala içəridən dağılır, belə ki, o vaxtlar Gürcüstanın işi belə idi. Belə ki, həmin vaxtlar Gürcüstanda çar İraklinin düşmənləri xəlvəti dolaşaraq camaatı qorxudan vaxtlar, çar İrakliyə qarşı düşmənçiliyə görə Gürcüstanı onun düşmənləri namussuzlar soruşmadan məhv edirdilər: Ağa Məhəmməd Şah Qacar iki yüz nəfərlik ordu ilə gəlir. Çıxın, bir yerə sığının, yoxsa hamınızı birlikdə öldürər. Bunun kimiləri qorxan bir çox adama sözlər deyirdilər və o səmimi camaat qorxu ilə baxırdı və möhkəm yerlərə soxulurdular. Bəlkə orada canlarını qurtara idilər.

Çar İraklinin qızı Tekleyə nişanlanan mənim atam bu zaman harada idi? Harada olası idi, öz bacısının yanında, Qarabulaqda onun evində idi. O, heç yerə çıxmadan evdə yeyib-içirdi. Düşünmürdü ki, bu gün və ya sabah çar İraklinin qızı ilə kəbin kəsdirəcəyəm və mən də onunla ölməliyəm. Lənət olsun şeytanlara!

Ağa Məhəmməd Şah Qacar Gürcüstana gələnə kimi həmin vaxtlar Revaz Andronikaşvilinin məxvi adamı Qarabulağa atamın yanına gəldi: Bilirsənmi, şahzadə Georgi sənin üçün nə qədər yaxşılıq etmək və yaxud necə bir xoşbəxtlik istəyir. Buna görə də sənə çatdırıram ki, şahzadə Georginin əmri ilə əgər orduya getməyə hazırlaşmaq istəyirsənsə, getmə, səbəbi olduğuna görə bu onun məramıdır. Və vaxt gələcək, mən sənin yanına gələcəyəm, şahzadə Georginin əmrinin olduğu barədə hər şeyi sənə deyəcəyəm (Bax, bu cür insanlar bütün Gürcüstanda çar İraklini məhv etmək üçün belə hərəkət edirdilər. Ermənilərə satılmışlar, Rusiyadan göndərilən Araşurt Arğutovun qızıl pulları ilə). Belə ki, şahzadə Georginin o Revazın nəinki ismarıcları, hətta onun əmri belə ağlına batmadı (Bu Revazın şahzadə Georginin nəyi olduğunu və onun bəzi əhvalatlarını da əvvəllər yazmışam). Belə ki, onun gizli dəstəsi çar İraklini məhv etmək üçün birgə hərəkət edirdi. T.Endronikaşvili mənə qozbel Zaalın oğlu Niniyaya necə dediyini söyləyib: Çar İrakliyə qarşı düşmənçilikdə mən də onlara qoşuldum. Mən o köhnə olaylardan onu bəyənirdim ki, əvvəlki işlərdə məndən heç nə gizlətmirdilər. Nə pisi, nə yaxşını. Bu Niniya da mənim qohumum idi və ondan başqa o dövrün köhnə adamları məni yaxşı tanıyırdılar.

Vaxtı gələndə Revaz Andronikaşvili Qarabulağa atamın yanına gələrək hər iki bacıma, atam və bibim Yekaterineyə dedi: Ağa Məhəmməd Şah Qacar iki yüz mindən artıq qoşunla Gürcüstana gəlir, çar İrakli öz qəyyumları ilə və şəhərin sakinləri ilə dünən şəhəri tərk edərək Mtiuleti dağlarına tərəf çəkiliblər. Şahzadə Georgi ismarıc etdi və sizə buyurdu ki, siz də şəhəri tərk edin və meşəli dağlara sığının. Saqareconu, o tərəfdə olan kəndləri də dolandım və onlara da şahzadənin əmrini çatdırdım ki, onlar da təcili buraları tərk etsinlər və meşəli dağlara getsinlər. Guya bütün bunlar tamamilə şahzadə Georginin əmri imiş. Bu cür insanlar, bax, beləcə Gürcüstanın sadəlöhv camaatını aldadırdılar.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:

**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN
2024-CÜ İL
№ 12 (207)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# 2024-CÜ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ ONLUĞU MƏLUMDUR




Təhsil Koalisiyasının təşəbbüsü ilə keçirilən Milli Müəllim Mükafatının onluğu müəyyən edilib. Onluğa düşən müəllimlərdən biri oktyabrın 5-də – Beynəlxalq Müəllimlər Günündə Milli Müəllim Mükafatının sahibi olacaq. Qalib müəllimə şirkətin baş sponsoru olan Qudavadze-Patarkatsişvili Fondu tərəfindən 15000 lari pul mükafatı veriləcək. Onluğun digər üzvlərini “Liberti” bank mükafatlandıracaq.

***2024-cü ilin Milli Müəllim Mükafatının on ən yaxşı müəllimi bunlar seçilib:***

- Nukri Karkadze – Bağdati 1 saylı ictimai məktəbin və Rokiti ictimai məktəbinin musiqi müəllimi;
- Giorgi Liparişvili – Tbilisi 6-cı Müəllif Məktəbinin, Minilliklər Məktəbinin, Beynəlxalq Gürcü Məktəbinin tətbiqi və təsviri incəsənət, gürcü dili və ədəbiyyatı müəllimi;
- Nana Marğania – Bağdati bələdiyyəsinin Vartsixi ictimai məktəbinin mən və cəmiyyət, bizim Gürcüstan və vətəndaş təhsili fənləri üzrə müəllimi;
- İnqa Mosiaşvili – İlia Çavçavadze adına Saçxere 2 saylı ictimai məktəbin biologiya, təbiətşünaslıq və musiqi müəllimi;
- Natia Narsavidze – Dmanisi 3 saylı ictimai məktəbin ingilis dili müəllimi;
- Natia Napetvaridze – Tbilisi 161 saylı ictimai məktəbin gürcü dili və ədəbiyyatı müəllimi;
- Dimitri Popovi – Qurcaani bələdiyyəsinin Qurcaani kənd ictimai məktəbinin riyaziyyat və kompüter texnologiyaları müəllimi;
- Natia Uçava – Tbilisi 126 saylı ictimai məktəbin ibtidai sinif, gürcü dili və ədəbiyyatı, riyaziyyat, tətbiqi və təsviri incəsənət, təbiətşünaslıq müəllimi;
- Sopio Kuxilava – Mestiya bələdiyyəsinin Dzvirmi kənd ictimai məktəbinin ingilis dili müəllimi;
- Nino Şuxoşvili – Gürcüstan Patriarxlığının Müqəddəs İlia Martali adına Kvareli Gimnaziyasının coğrafiya, vətəndaşlıq və bizim Gürcüstan fənləri üzrə müəllimi.

*Müsabiqənin baş sponsoru Qudavadze-Patarkatsişvili Fondu, qızıl sponsoru “Liberti” bank və İlia Dövlət Universitetidir. Dəstəkçilər: EPAM Georgia, Konsultasiya və Təlim Mərkəzi (ctc), “Alte” Universiteti, İctimai televiziya.*

***Milli Müəllim Mükafatı 2017-ci ilin 13 mayında təsis edilib. Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 8-ci dəfə həyata keçirilir və müəllimlik peşəsinin populyarlaşdırılmasına yönəlmiş qlobal – “The Global Teacher Prize” şirkətinin bir hissəsidir.***

*Mənbə: edu.aris.ge*

## SƏHİYYƏ NAZİRİNƏ YENİ MÜAVİN TƏYİN OLUNUB



Gürcüstanın səhiyyə nazirinə yeni müavin təyin edilib. Bu barədə Gürcüstan Səhiyyə Nazirliyi məlumat yayıb.

Məlumata görə, yeni müavin **Giorgi Tsaqareişvili** 2022-ci ildən bu günə qədər Gürcüstan parlamentinin onuncu çağırış deputatı və “Gürcü Arzusu” fraksiyası sədrinin birinci müavini olub.

Bu illər ərzində o, Ətraf Mühitin Mühafizəsi və Təbii Sərvətlər Komitəsinin, Hüquq Məsələləri və Avropa ilə İnteqrasiya Komitəsinin üzvü olub.

## GÜRCÜSTAN YANACAĞI ƏN ÇOX RUSİYADAN İDXAL EDİB



Gürcüstan cari ilin yanvar-may ayları ərzində 502,1 min ton benzin və dizel yanacağı idxal edib. Bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 144 faiz çoxdur. Bu barədə Gürcüstanın Neft Məhsulları İdxalatçıları Birliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, hesabat dövründə ölkəyə 251,6 min ton benzin gətirilib. İdxal olunan dizel yanacağının həcmi isə 250,5 min ton təşkil edib.

**Gürcüstanın idxal etdiyi yanacağın 52,2 faizi və ya 261,9 min tonu Rusiyanın payına düşüb.**

Gürcüstana ikinci ən çox yanacaq idxal edən ölkə Bolqarıstan olub – 73,6 min ton. Üçüncü yerdə 55,9 min tonla Rumıniya, dördüncü yerdə isə 48 min tonla Azərbaycan qərarlaşıb.

Hesabat dövründə Gürcüstan Belarusdan 26,9 min ton, Türkmənistandan 13,9 min ton, Yunanıstandan 11,2 min ton, Türkiyədən 2,1 min ton yanacaq idxal edib.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ AZALIB

Gürcüstanın xarici ticarət dövriyyəsi əvvəlki illərlə müqayisədə azalmaqda davam edir. 2024-cü ilin yanvar-may ayları ərzində ölkənin xarici ticarət dövriyyəsi 8419,9 milyard dollar təşkil edib, bu da ötən ilin eyni dövrü ilə müqayisədə **2,3 faiz azdır.** Bu barədə Gürcüstan Milli Statistika Xidmətinin saytında məlumat verilib.

Məlumata görə, hesabat dövründə ölkənin xarici ticarətində idxalın həcmi 6,146 milyard dollar olub, bu da 2023-cü illə müqayisədə 0,5 faiz azdır.

İxracın həcmi isə ötən ilin eyni dövrü ilə müqayisədə 9,2 faiz azalaraq 2,274 milyard dollar təşkil edib.

Gürcüstanın xarici ticarət dövriyyəsində 3,872 milyard dollar kəsir yaranıb, bu da ötən ilki götəricidən 7,2 faiz çoxdur.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.